**Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınmışdır**

Noyabr ayının 21-də 3 saylı Ərazi Vergilər İdarəsinin Vergi borclarının alınması şöbəsinin əməkdaşları Xaçmaz rayonu, Nabran qəsəbəsində yerləşən «Sahdağ» şirkətinə məxsus (VÖEN: 7700035991) «Məkan» istirahət mərkəzində əmlakın siyahıya alınması tədbirləri keçirmişlər. Vergi ödəyicisinin cari ilin avqust ayının 17-də yaranmış vergi borcu ilə əlaqədar oktyabrın 16-da onun 600 manat dəyərində əmlakı siyahıya alınmışdır. Lakin vergi ödəyicisi tərəfindən borc ödənilmədiyindən və əlavə olaraq 563 manat məbləğində yeni borc yarandığından noyabr ayının 1-də ona borc bildirişi göndərilmişdir. Borc məbləği qanunvericilikdə nəzərdə tutulan müddət ərzində ödənilmədiyindən vergi ödəyicisinin bank hesablarına sərəncam qoyulmuş, noyabr ayının 7-də isə Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi istirahət mərkəzində əmlakın siyahıya alınması haqqında qərar çıxarılmış və obyektdəki 750 manatlıq müxtəlif növ məişət texnikası və avadanlıq müvafiq qaydada siyahıya alınmışdır.

Həmin gün vergi xidməti əməkdaşları Xaçmaz rayonunun Qusarçay kəndində yerləşən, fiziki şəxs Məmmədov Fərhad Məmməd oğluna məxsus (VÖEN: 7700333412) mağazada da əmlakın siyahıya alınmasını həyata keçirmişlər. F.Məmmədovun fəaliyyəti vergi orqanı əməkdaşları tərəfindən araşdırılarkən onun 1052 manat vergi borcunun yarandığı müəyyən edilmiş, 1 noyabr 2012-ci tarixdə vergi borcu haqqında bildiriş göndərildikdən sonra bu ilin oktyabr ayında ona məxsus əmlakın siyahıya alınması haqqında qərar çıxarılmışdır. Vergi əməkdaşları mağazadakı 630 manat dəyərində olan məişət əşyaları və təsərrüfat mallarını müvafiq qaydada siyahıya almışlar.